"Zamanın rəngləri"

## Publisistin düşüncə müstəvisində

### *I. «Çarpışan zaman»da imkanlar və iddialara münasibət*

# 1. Öncəgörmənin həyati əsasları

*Doğrudur, indi “öncəgörmə” terminini daha çox “proqnoz” sözü ilə əvəz edirlər. Zənnimcə, “öncəgörmə” bütün mümkün mənaları özündə ehtiva etdiyi üçün terminin Azərbaycan dilində səslənişini daha üstün tutmaq yaxşı olar. Öncəgörmə (proqnoz) haqqında açıq məlumat mənbəyində (ensiklopediyada) oxuyuruq: Proqnoz – [yun. prognosis, pro – irəli; gnosis – bilik, əvvəlcədən görmə] 1) müəyyən bir hadisənin gələcək inkişafı və nəticəsi haqqında öncədən verilən məlumat; 2) obyektin gələcəkdə mümkün ola bilən halları və alternativ yollar və onların gerçəkləşməsi dövrü haqqında elmi cəhətdən əsaslandırılmış rəydir; 3) müəyyən verilənlər əsasında hər hansı bir hadisənin qarşıda duran inkişafının necə gedəcəyini və necə qurtaracağını əvvəlcədən demək.*

*Proqnozlaşdırma – hər hansı bir hadisənin (yaxud hadisələr sinfinin) və ya proseslərin, sistemlərin inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə yönəlmiş elmi tədqiqat. Elmi qabaqgörənliyin konkretləşdirilməsi olan proqnozlaşdırma sosial sahədə planlaşdırma, layihələşdirmə, proqramlaşdırma, idarə etmə və məqsədliliklə bağlıdır.*



*Əli Rza XƏLƏFLİ*

Öncəgörmə (proqnozlaşdırma) baxıcılıq deyil; bir-birini tamamlayan hadisələrin arasındakı əlaqələrin izlənməsi ilə düşüncə qənaətidir, qanunauyğun nəticədir.

Professor Qulu Məhərrəmli cəmiyyətdə baş verən prosesləri (ölkədaxili və ölkəxarici) ardıcıl izləyən çevik düşüncə adamı kimi cəmiyyətin maraqlarını nəzərə alaraq, hadisələrin gözlənilən nəticələri haqqında müəyyən fikir demək sahəsində, demək olar ki, ixtisaslaşıb. Xüsusilə, siyasi prosesləri ardıcıllıqla izləməsi ona imkan verir ki, müəyyən qənaətlərini cəmiyyət üçün cəsarətlə bölüşsün. “Zamanın rəngləri” kitabına toplanmış publisistik yazılarında onun öncəgörmələrini müşahidə etmək mümkündür. Doğrudur, hadisələr zaman axarına tabedir, vaxt keçdikcə hadisələrin sənədləşmiş variantı tarixin yazılı səhifələrinə çevrilir. İndi professor Qulu Məhərrəmlinin artıq tarixə çevrilmiş hadisələrlə bağlı öncəgörmələrinin (proqnozlarının) maraqlı məqamlarına nəzər salaq:

**Bişkek protokolu: mübahisələrə səbəb nədir? (Atəşkəs haqqında sənədi günün mövzusuna çevirən bir neçə məqam haqqında) “Bakı”, 26 may 1994.**

Bu, Qulu Məhərrəmlinin 27 il bundan əvvəl Azərbaycan cəmiyyətində az qala siyasi qalmaqala çevrilən, müəyyən siyasi qüvvələrin əlində çaxnaşma üçün əsas vasitə kimi qavranılan məşhur “Bişkek protokolu” haqqında mülahizələridir. Əslində, həmin dövrün çox mühüm hadisəsi kimi bu sənəd yaddaşlardan asanlıqla silinə bilməz. Ən başlıcası, Azərbaycanda siyasi idarəetmənin kövrək dövründə iqtisadi dayanıqsızlıq zamanında atəşkəsi təmin edəcək həmin sənədə münasibət birmənalı deyildi. Çoxlarına (əlbəttə, hadisələrin dərinliyinə vara bilməyən kütləyə) elə gəlirdi ki, bu protokolla biz torpaqlarımızın işğalı ilə barışmış oluruq. Qulu Məhərrəmli isə həmin sənədə elmi yanaşma sərgiləyir. O, bu sənədi necə qiymətləndirməyin və eləcə də atəşkəsdə onun rolunu dəyərləndirməyin real əsaslarını göstərir. Qəzəb eyforiyasına köklənmiş kütləyə necə, hansı şəkildə cavab vermək və həm də cavabda həyati reallığı təmin etmək publisist üçün asan deyil. Bunun üçün o, xüsusi siyasi hazırlığa malik olmalı, kütləyə təqdim olunan cavablarında boş yer qoymamalıdı. Yalnız bu yolla o, sözünün eşidilə biləcəyinə təsir imkanı qazana bilər: “Cəmiyyətdə tutduqları mövqeyə və öz siyasi maraqlarına görə bəziləri bu protokolu əhəmiyyətsiz niyyət sənədi hesab edir, bəziləri isə əksinə, onun siyasi rənglərini həddən artıq tündləşdirirlər. Əslində isə Bişkek protokolu dövlətlərarası sənəddir və beynəlxalq səciyyə daşıyır. Bu sənədə dolğun və qərəzsiz qiymət vermək üçün ona iki cəhətdən yanaşılmalıdır. Birincisi, münaqişəni nizama salmaq üçün ayrılıqda götürülmüş sənəd kimi, ikincisi isə vasitəçilik təşəbbüsünü ələ almış dövlətin çoxgedişli planlarından hüquqi bir məqam kimi. Birinci halda Bişkek protokolu ətrafında hay-küy qaldırmaq - məsələləri şişirtmək deməkdir. İkinci halda isə artıq bu sənədi birmənalı qiymətləndirmək olmaz”. Gərək belə məqamlarda dövrün həssaslığı mütləq nəzərə alınsın. Əgər yaddaşımızı bir balaca tərpətməli olsaq, özümüzə də aydın olar ki, o vaxt Azərbaycan tərəfinin tələb etdiyi düzəlişləri Rusiya nümayəndəsi “xırda düzəlişlər” adlandırmışdı. Belə çıxırdı ki, Rusiya tərəfi Azərbaycan düzəlişlərinin heç bir prinsipial əhəmiyyəti olmadığını bildirir. Hələ üstəlik, protokola Azərbaycan tərəfinin imza atmasına Kazemirovun xırda epiteti az qala belə bir fikir də yaradırdı ki, Rusiya planını Bakı qəbul edir. Məlumdur ki, “bütün hallarda Rusiya planı Azərbaycanın xeyrinə ola bilməz” qənaəti həmin dövrdə düşüncələrə hakim idi. Halbuki, həmin sənəd Azərbaycan tərəfinin əlavələrinə əsasən beynəlxalq müşahidəçilərin də regiona gəlməsinə yol açırdı. Qulu Məhərrəmli doğru deyir. Həmin dövrdə rus qoşunlarının guya regiona gətirilməsi fikri çox yayılırdı və bu da “Bişkek protokolu”nun düzgün qavranılmamasının nəticəsi idi. Hələ üstəlik bəzi müxaliflər bu sənəddən siyasi al-ver məqsədi ilə də yararlanmağa çalışırdılar. O zaman tərəflər arasına Qarabağ ermənilərinin nümayəndəsinin də daxil edilməsi çox güclü etiraz doğurmuşdu. Və Qulu Məhərrəmli bu yerdə ajiotajın yaranmasına səbəb kimi sənədin düzgün izah olunmamasını, informasiya qıtlığını da göstərir. Amma Qulu Məhərrəmli qətiyyətlə yazırdı: “Bəzilərinin fikrincə, Bişkek protokolunun imzalanması Azərbaycanın diplomatik imkanlarını məhdudlaşdırır. Hətta iddia edənlər var ki, Qarabağ ermənilərinin də bu sənədi imzalaması onların müstəqil tərəf kimi tanınmasına yol açılması deməkdir. Təbiidir ki, bunların heç birisi həqiqətə uyğun deyildir”. Bəs həqiqət nədə idi? Həqiqəti isə yalnız Qulu Məhərrəmli kimi hadisələri düzgün izləyən, baş verənlərin qanunauyğun nəticəsini qavrayan müəlliflər deyə bilərdi. Qulu Məhərrəmli həmin dövrdə Qarabağ erməni nümayəndəsinin imzalanma prosesində iştirakını “arzuolunmaz” adlandırır. Ancaq həmin dövrdə onların kənarda qalmasının da mümkünsüz hesab edir və bunun gələcəkdə heç bir ciddi fəsad törədə bilməyəcəyini də diqqətə çəkir. Nəhayət, Qulu Məhərrəmlinin qeyd etdiyi kimi zaman göstərdi ki, bu protokol Azərbaycanın diplomatik imkanlarını məhdudlaşdıra bilmədi. O vaxt bu fikri əldə əsas tutanlara Qulu Məhərrəmli əsassız fakt kimi yanaşmasını gizlətməmişdi. Əksinə, Azərbaycan elə həmin dövrdə müxtəlif beynəlxalq sənədlərə imza atır, proqramlara qoşulurdu. Bəs “Bişkek protokolu”nun əsas əhəmiyyəti nədən ibarət idi? Bunu Qulu Məhərrəmli sənədə münasibətinin yekunu kimi diqqətə çatdırır: “Ən başlıcası- siyasi, iqtisadi və hərbi cəhətdən güclənmək üçün çox zəruri olan vaxt əldə etmişik. Digər tərəfdən hadisələrin gedişatından belə görünür ki, hətta bizim iradəmizdən asılı olmayaraq Qərb dövlətləri Qarabağ münaqişəsinin beynəlxalq təşkilatların vasitəçiliyi ilə həllinə doğru ümidverici addımlar atır”. Bu arada bir-iki kəlimə əlavə etməyə ehtiyac var. Qulu Məhərrəmli siyasi strateq kimi dövlət başçısının yeritdiyi xəttin mahiyyətini vaxtında və düzgün anlamışdı. Əgər hadisələrin indiki cərəyanı səviyyəsi olmasaydı, onda biz Qulu Məhərrəmlinin öncəgörməsini əsassız “baxıcılıq” kimi şərh edərdik. Hətta Ermənistanın o vaxtkı prezidenti də elan etdi ki, vaxt Azərbaycanın xeyrinə işləyir. Ancaq o zamanın məşhur insan cəlladı Robert Köçəryan təmsil etdiyi işğalçı qüvvələrə deyirdi ki, vaxtın Azərbaycanın xeyrinə işləməsi və bundan istifadə ilə Azərbaycanın güclənəcəyi haqqında fikirlər mənasız qənaətlərdi. Tarix kimin necə düşündüyünü artıq təsdiq edib.

Qulu Məhərrəmlinin “Bişkek protokul”na şərhi o dövrün siyasi hakimiyyətinə güclü mənəvi dayaq oldu. Nəticədə Qulu Məhərrəmlinin düşüncəsi Azərbaycanın mənafeyinə xidmət edirdi. Bütün bunlar əslində gələcək üçün dərslərdir. Eyni zamanda siyasətdə hadisələri şərh etmək gücündə olanlara mənəvi stimuldur.

**Çeçenistan siyasi düyünlər məngənəsində. “Bakı”, 28 yanvar 1995**

Bu məqalədə müəllif Çeçenistan hadisələri əsasında nəzər-diqqətini şərh edir. Çoxlarımızın yadındadır, Çeçenistanın Rusiyadan qopmaq cəhdləri, bu yöndə mübarizə çeçenlərə qarşı amansız müharibə ilə müşayiət olunurdu. Demək olar ki, Qroznuda daş daş üstə qalmamışdı. İnsan ölümlərinin, itkilərin hesabı itmişdi. Çeçenlər verdikləri itkilərə baxmayaraq döyüş əzmindən geri çəkilmək istəmirdilər. Moskvanın mövqeyini isə Qulu Məhərrəmli konkret olaraq belə ifadə edirdi. Bu mövqe “Moskvanın ölkədaxili sosial-siyasi problemlərdən diqqəti yayındıraraq onları “Rusiyanın bütövlüyü uğrunda” vətənpərvərlik şüarı ilə pərdələmək cəhdindən xəbər verir”. İlk baxışdan söhbət Çeçeinstandan gedir, Rusiyanın öz bütövlüyünü qorumaq istəyindən gedir. Amma Qulu Məhərrəmli Rusiyanın Çeçenistana qarşı sərt mövqeyini digər bölgələrə, gələcəkdə müstəqillik istəyinə düşəcək regionlara xəbərdarlıq olduğunu sözünün alt qatı ilə diqqətə çəkir. Rusiya əslində o dövrdə güclü siyasi böhran yaşayırdı. Böhran daşıyıcısı olan ölkənin ətrafa sərt yanaşması, əslində, daxili problemlərdən diqqəti yayındırmaq qəsdi daşıyır. Qulu Məhərrəmli qeyd edir ki, üzü Qafqaz tərəfə Rusiya qüvvələrinin cəmləşməsi əslində imperiyanın Şərqlə bağlı niyyətlərindən əl çəkmədiyinin nümayişidir. O zaman qərb dairələri də (ATƏT-in Budapeşt toplantısında) narahatlıqla bildirirdilər ki, Rusiya siyasi yolla əldə edə bilmədiyini silah gücü ilə həyata keçirmək taktikasından geri durmur. Qulu Məhərrəmli Rusiyanın imperiya düşüncəsini çılpaqlığı ilə açıqlayır; demək, Avropa Rusiyanın ayrı-ayrı bölgələrinə, orta Asiyaya və Qafqaza münasibətdə sülhpərvərlik missiyasını genişləndirirsə, bu artıq Rusiya üçün müəyyən problemlərin yaradılması deməkdir. Amma Rusiya Çeçenistana münasibətdə nəyə qadir olduğunu diqqətə çatdırır. Qulu Məhərrəmli Çeçenistan hadisələri fonunda Rusiyanın imicinə vurulan təsiri, Avropa və Rusiya arasında münasibətlərin kəskinləşməsinə dair verdiyi açıqlamalar da artıq tarix tərəfindən təsdiq olunub. Məlumdur ki, Rusiya qərbin çoxsaylı sanksiyalarına tuş gəldi. Rusiya, demək olar ki, təkləndi və Avropada söz sahibi olmaq funksiyasını itirmək durumuna gəldi. Bütün bunları Qulu Məhərrəmli vaxtında göstərmişdi. Əlbəttə, bəzən böyük hərbi güc sahibləri ən üstün silahı qələmdən və sözdən ibarət olan publisistlərin öncəgörmələrinə əhəmiyyət vermir. Bu zaman nəticə çox acınacaqlı olur.

Qulu Məhərrəmli Çeçenistanın özünü də Rusiya ilə danışıqlara getməyə çağırır və belə bir tezislə “Çeçenistan siyasi düyünlər məngənəsində” yazısına yekun vurur. “Siyasi düyünləri açmaq üçün ən optimal yol danışıqlar stolu arxasına keçməkdir”. Elə bu qənaətin özü də tarixin sınaqlarından dəfələrlə çıxıb. Hətta ən ağılsız və haqsız hərbi mübarizə yolu seçmiş Ermənistan belə bu qənaəti uzun müddət dərk etmədi. Nəticəsi isə onlar üçün çox acınacaqlı oldu.

**Rusiyanın Qafqaz oyunlarının bəzi məqamları. “Yeni dünya”, 5 aprel 1995.**

*(Davamı 6-cı səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

# 1. Öncəgörmənin həyati əsasları

Qafqaz siyasətində Rusiya bünövrədən səmimi olmayıb. Qarabağ xanlığı ilə bağlanan müqavilənin faicəvi sonluğu Gəncə xanlığına təcavüz və qanlı çarpışma, general Sisianovun Bakıda öldürülməsi və s. hadisələr Rusiyanın Qafqaz siyasətinin tarixi ifşasıdır. Nəhayət, Azərbaycan Rusiyanın işğal məqsədlərindən növbəti dəfə ağır zərbə aldı. 1920-ci ildə qurduğu müstəqil respublika bolşeviklərin əli ilə süquta uğradıldı. Mahiyyət eyni idi. 19-cu əsrin birinci qərinəsində baş verən hadisələrlə 20-ci əsrin birinci qərinəsində baş verən hadisələr bir-birini tamamlayırdı.

Publisist Qulu Məhərrəmlinin Rusiyanın Qafqaz oyunlarının bəzi məqamlarına diqqəti yönəltməsi təsadüfi deyil. O, sanki tarixi xatırlatmalarla öz istiqlalını qorumaqda israrlı olan Azərbaycanı ehtiyatlı olmağa çağırırdı. Təcrübəli analitikin- siyasi şərhçinin publisistik yanaşma ilə, təsirli canlı dil üslubu ilə Azərbaycan oxucusunu ayıq salmaq niyyətini onun bu məqaləsinin daha əhatəli bir parşasından aydın görmək olar. Fikirlər üzvi şəkildə bir-birilə o qədər bağlıdır ki, mətni kəsməyə, müəllifin maraqlı nitqinə müdaxilə etməyə qıymırsan:

“100 il əvvəl olduğu kimi, indi də Rusiya və Qafqaz mövzusu aktualdır. SSRİ-nin dağılması ilə yaranmaqda olan yeni geosiyasi mühitdən doğan kəskin gedişlər bu gün onu daha cəzbedici bir rəngə salmışdır. İndi məsələnin siyasi və hərbi cəhətləri elə çarpazlaşmışdır ki, 200 il əvvəl Qafqaz sıldırımlarından aşan rus əsgərinin o vaxt düşündüyü qədər də sadə və aydın deyildir. Çünki artıq Rusiya ilə yanaşı, bu regionda açıq maraqları olduğunu gizlətməyən ABŞ, Türkiyə və İran kimi güclü dövlətlər Qafqazın siyasi meydanına varid olmaqdadır. Əgər Moskva uzun müddət və elə indi də İranla siyasi sövdələşmələr apararaq müəyyən tarazlığını qoruyub saxlayırsa, artıq ABŞ və Türkiyə özlərini güzəştsiz bir rəqib kimi təqdim etməkdədir. Üstəgəl regionda yaranmış yeni müstəqil dövlətlər amili Rusiyanı xeyli dərəcədə qabaqlayıcı tədbirlər görməyə vadar edir. Əgər o, Ermənistanı və cüzi müqavimətdən sonra isə Gürcüstanı ram edib nəzarəti altına sala bilibsə, zahirən aralarındakı xoş davranışa baxmayaraq müstəqillik yolunda dönməzliyini dəfələrlə nümayiş etdirmiş Azərbaycanın Rusiya ilə bir xeyli problemi vardır: həm siyasi, həm də hərbi-iqtisadi sahədə Qərbin neft konsorsiumu ilə bağlanmış “Əsrin müqaviləsi” isə sözün əsil mənasında Moskvaya böyük zərbədir. Çünki artıq burada söhbət neft və onun arxasındakı iqtisadi maraqlardan getmir. İndi Rusiyada elə hesab edirlər ki, neft müqaviləsi Azərbaycana Qərb investisiyasının axınına səbəb olacaq. Onun ardınca isə Qərbin siyasi dəstəyi və bütövlükdə regionda Qərbin möhkəmlənməsi prosesi gəlir. Bu isə geosiyasi mühitin bütünlükdə dəyişməsi və Rusiyanın Qafqazdan sıxışdırılması deməkdir olacaq”.

Səriştəli publisist kimi Qulu Məhərrəmli xronikanı (bu sadəcə xronika deyil, canlı dilin və tarixi bilginin imkanlarından istifadə ilə mənzərəni oxucu yaddaşında canlandırmaq vasitəsidir) qoyduğu məsələyə oxucu diqqətini yönəltmək üçün təqdim edir. Bununla da oxucunun tarixlə bağlı yaddaşını bərpa edir. Üstəlik, tarixlə müasirliyi yaratdığı tabloda (xəritədə) qovuşdura bilir. Məlumdur ki, oxucu (dinləyici) quru xronika ilə razılaşmadığı kimi əsaslandırılmayan siyasi mülahizələri də qəbul etmir. Rusiyanın Qafqaz oyunları ilə bağlı prosesin əsas istiqamətlərini (siyasi yol, hərbi yol, hərbi-iqtisadi təzyiqlər və təxribatlar yolu) göstərərkən bu istiqamətlərin hansının Rusiya üçün əlverişli olduğuna, daha çox istifadə ediləcəyinə də aydınlıq gətirir. Əlbəttə, Rusiya üçün sərfəlidir ki, keçmiş müttəfiq respublikaları hansısa ad altında bir yerə yığsın və belə bir qurumun vasitəsilə yeni, müstəqil ölkələrə təsir göstərə bilsin. Qulu Məhərrəmlinin qeyd etdiyi kimi əgər belə bir üsul yaramırsa, işğalçılıq niyyətini gizlətməyən hər hansı bir ölkə hərbi yoldan istifadəni vacib hesab edir və bunun üçün dünya qarşısında hər hansı bir mənəvi məsuliyyəti heçə sanır. Qulu Məhərrəmlinin şərhlərində Türkiyənin adı tez-tez çəkilir. Bununla sanki diqqətə çatdırır ki, Türkiyə hələlik bir qədər ləng tərpənsə də, vəziyyətin müəyyən kəskinləşdiyi məqamlarda açıq və prinsipial şəkildə mövqeyini bildirməli olacaq. Tarix göstərdi ki, belə bir dövr yetişdi və Türkiyə Qafqazda Azərbaycan uğrunda mübarizədən kənarda qalmadı. Bütün məsələlərdə reallıq ən yaxşı sübutdur. Ona görə də Qulu Məhərrəmli, xüsusilə Azərbaycanı xəbərdar edir ki, Rusiya ilə bağlı hər hansı bir məsələdə arxayınlaşmaq, birtərəfli mövqe tutmaq (dost, ya düşmən kimi qəbul etmək) düzgün deyil.

Qafqaz oyunlarından danışarkən Qulu Məhərrəmli fikirlərinə açar kimi tarixi olaylardan məharətlə yararlanır və yazısının sonuna doğru yenə də, Qafqaz fatehi Yermolovu xatırladır. Və müəyyən mənada Qafqaz hadisələrinə drijorluq edən generalların varisliyə sadiq qaldıqlarını diqqətə çəkir.

Azərbaycanda Qərb meylli siyasətçilərin də diqqətinə çatdırır ki, onlar heç də Amerikanı, Fransanı, İngiltərəni kilsə mehrabı kimi müqəddəs hesab etməsinlər. Onlar da hadisələrə, proseslərə yalnız öz maraqları çərçivəsində yanaşırlar. Sözünün sonunu yenə canlı xalq aforizmindən istifadə ilə yekunlaşdırır: “Bütün bu səbəblərə görə belə bir həqiqətlə razılaşmaq lazım gəlir ki, hələlik Bağdadda kor xəlifə, Qafqazda isə Rusiya hökmranlıq edir”. Qulu Məhərrəmlinin siyasi proqnozları yaxın məsafəli hadisələri şərh etdiyi kimi zaman baxımından uzaq mənzilli olayların da üzərinə işıq salır.

Bir çox hallarda siyasi iradə özünü diqtə edir. Məlumdur ki, Ermənistan özünə yaxın dairələrin təhriki ilə Azərbaycanı dəfələrlə təxribatlara çəkib. Tovuz hadisələri, indiki Kəlbəcər hadisələri, digər sərhəd təxribatları göstərir ki, tərəflərdən biri müstəqil düşüncə imkanlarından məhrum olanda siyasi hava təmizlənmir. Doğrudur, Rusiya Qafqazda hökmran olmaq imkanlarını xeyli itirib. Ermənistanın mənafeyinə uyğun olaraq indi o yeri Fransa tutmağa cəhd edir. Unudurlar ki, Azərbaycan 90-cı illərin əvvəllərindəki durumundan çoxdan çıxıb. İndi Qafqazda (Azərbaycana münasibətdə) Türkiyə kifayət qədər nüfuzlu söz sahibidir.

Qulu Məhərrəmlinin siyasi publisistikası günümüzün hadisələrini şərh etmək baxımından da əsaslı mənbə ola bilər. Görünür, tarixi hadisələr yalnız zaman baxımında bizdən uzaqlaşır, mahiyyət baxımından təkrarlanmaq imkanını itirmir.

**Qafqaz siyasətinə ikili yanaşma. “Baki”, 8 aprel 1995.**

Ümumiyyətlə, cəmiyyət daxilində baş verən hadisələrə müxtəlif cür yanaşmaları təbii qəbul etmək lazımdır, amma unutmaq olmaz, elə siyasi hadisələr var ki, ona birmənalı yanaşmasan cəmiyyətin bətnində təhlükəli yaraya çevriləcək və onun sağalma prosesi uzun vaxt aparacaq. Qafqaz siyasətinə gəldikdə isə ikili yanaşma açıq-aşkar riyakarlıqdır və hətta qarşı-qarşıya duran tərəflərin yox, müdaxilə edən, hadisələri drijor çubuğu ilə yönləndirən, maraq sahibi olan tərəfə xidmət edir. Yada salaq ki, Qafqazda erməni məsələsinə ikili yanaşma Rusiyanın öz marağını təmin etməsi ilə nəticələndi. Qarabağa, Azərbaycanın tarixi ərazilərinə çoxlu sayda ermənilər köçürüldü. Bolşevizm bu siyasəti davam etdirdi. Rus bolşevikləri Türkiyənin və Azərbaycanın arasında gələcəkdə özlərinə jandarm rolu oynayacaq, heç bir siyasi əxlaqa tabe olmayan erməni dövlətini Azərbaycan əraziləri hesabına böyütdülər. Üstəlik Zəngəzur Azərbaycandan qoparıldı. İrəvan paytaxt şəhəri kimi artıq Ermənistana verilmişdi, tarix göstərdi ki, ermənilər bununla da səslərini kəsmədilər, bütün bunlar azmış kimi, Qarabağda muxtar vilayət statusu ilə gələcək üçün terror mərkəzi də yaradıldı. Rusiyanın Qafqaz hadisələrinə ikili yanaşmasını ifşa etmək üçün Qulu Məhərrəmli bir daha çeçen hadisələrinə qayıdır. Belə bir sual qoyur: “Bəs Çeçenistan müharibəsinin Qafqaza təsiri necə olacaq?”. Suala cavab vermək üçün Qulu Məhərrəmli xalqların öz taleyini həll etmə prinsipi ilə mövcud siyasi ərazinin bütövlüyünü qorumaq məsələsini qarşılaşdırır. Rusiya Abxaziyanın Gürcüstandan ayrılmaq istəyinə dayaq durur, Çeçenistanı isə seperatçılıqda təqsirləndirərək bombalayır. Hətta Rusiyanın aparıcı siyasi xadimləri “Gürcüstan federativ dövlət olmalıdır” kimi əcayib tövsiyələr də verirlər. Doğrudur, Qulu Məhərrəmli o dövrdə Azərbaycanda gedən örtülü-örtüsüz bəzi məsələlərə toxunmur, halbuki, Azərbaycanda da seperatçılıq dalğası şimaldan-cənubdan ötməkdə idi. Azərbaycanı da federativ dövlət kimi görmək istəyində olanlar az deyildi. Bələlərinin tör-töküntüləri indi də Moskvada, Yerevanda, Avropanın bəzi kluarlarında planlar qurmaqdadırlar, amma, əlbəttə, bütün bunlar hamısı xülyadır. İkili yanaşmanın eybəcər mahiyyətini Qulu Məhərrəmli ən zəif düşünən siyasətçinin belə bütün aydınlığı ilə dərk edəcəyi səviyyədə göstərə bilir: “Azərbaycana gəldikdə isə burada da təxminən eyni vəziyyət mövcuddur. “Vaşinqton post” qəzetinin yazdığı kimi, “İndi Çeçenistanda zahirən ərazi bütövlüyü uğrunda qanlı müharibə aparan Moskva Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın erməni seperatçılarına və onları himayə edən Ermənistan Respublikasına ixtilafın əvvəlindən bəri arxa durub”. İstər-istəməz belə bir sual meydana çıxır: əgər beynəlxalq hüquq normalarına görə seperatçılıq qəbahətdirsə, onda bəs niyə bu, çeçenlərə aid edilir, amma abxazlara və Qarabağ ermənilərinə yox? Görünür, bu sualın cavabını elə sualın özündə axtarmaq lazımdır. Təzadlı haldır ki, Çeçenistan böhranını sülh yolu ilə deyil, tank və aviasiyanın köməyi ilə həll etməyi üstün tutan Rusiya Qarabağ ixtilafına dair danışıqlarda sülhməramlı vasitəçilərdən biridir. Həm də aparıcı rola iddia edən bu vasitəçinin davranışındakı ziddiyyətməntiqsiz və ikili yanaşma faktı göz qabağındadır. Bütün bunlar qorxulu məqamlardır. Və həmin mövqe ona imkan verir ki, Rusiya hökuməti həm seperatçılıq məfhumundan, həm də beynəlxalq hüquq normalarından istədiyi vaxt, istədiyi məqsədlər üçün istifadə etmək hüququnun iddiaçısına çevrilir. Onun bu eybəcər siyasəti regiona hələ uzun zaman öz təsirini göstərəcəkdir”. Doğru deyir. Uzun müddət təsir göstərdi və göstərməkdədir. Rusiyanın mövqeyi özü ilə bərabər güc səviyyəsində danışan qüvvələrlə münasibətdə nisbətən mülayimləşir. Və bunu biz, Qarabağ hadisələrinin alovlu müharibəyə çevrilməsindən sonra, Türkiyənin konkret və aydın mövqe müdaxiləsindən sonra gördük.

Qulu Məhərrəmlini bu tipli şərhlərini oxuduqca Azərbaycan diplomatlarının ayrı-ayrı məqamlarda siyasi görüşlərdə necə qanı görünməyən qanlı savaşlar apardıqlarını da təsəvvür etmək olar. Və buradaca demək yerinə düşər ki, bu tipli şərhlər diplomatiyamızın gələcəyi olan yeni nəsil mütəxəssislər üçün çox dəyərli siyasi dərslikdir.

**Haradan keçərsən, ay kəmər? “Yeni dünya”, 20 aprel 1995**

Kəmər məsələsi, Xəzərin neft ehtiyatları onsuz da həmişə diqqətdədir və bu gün də müəyyən məsələlərin şərhi zamanı mühüm məsələ kimi kəmər yada düşür. Əgər yaddaşımızı bir balaca oyatmalı olsaq, Türkmənbaşının “Xəzərdən qan iyi gəlir” deyimi, İranın Xəzərin statusu ilə bağlı mövqeyi, Rusiyanın proseslərdə dumanlı mövqeyi... bütün bunlar o dövrün gərginliyini göstərən əsas kardioqram qeydləridir. Qulu Məhərrəmli haqqında yazan müəlliflərdən biri onun bu hadisələrə münasibətini şərh edərkən qeyd edir ki, məsələnin ümumi-kütləvi düşüncə arenasına gəlməsi təkcə Qulu Məhərrəmlinin rəğbət doğuran müəllif üslubu və obyektiv-analitik təhlili ilə bağlı deyildir. Məsələnin ciddi düşüncə mübahisələrinə səbəb olması neft oyunları ilə də bağlıdır. Şərhçi “Qulu Məhərrəmlinin rəğbət doğuran müəllif mövqeyi” ifadəsini işlədir. Demək bu ifadə göstərir ki, Qulu Məhərrəmli siyasi proseslərdə iltihablaşmış yerləri dəqiq tapa bilir. Və bir növ şokterapiya üsulu ilə ona birbaşa təsir edir. Ağrı hər tərəfə yayılır və hər tərəfdən əks-səda gəlir. “Haradan keçərsən, ay kəmər?” sualını şərh edərkən İranın, Ermənistanın, Rusiyanın, Türkiyənin, Amerikanın və Gürcüstanın lehinə və əlehinə mövqeləri üzərində dayanır. Son nəticədə, Gürcüstan yolunun reallaşacağını proqnoz edir. Doğrudur, sonluqda bunun xeyli vaxt aparacağını qeyd etsə də, gəldiyi qənaətdən geri çəkilmir. Arıq tarixə qovuşmuş “Əsrin müqaviləsi” layihəsi çoxdan həqiqətə çevrilib. Rusiya Azərbaycanın siyasi iradəsi qarşısında geri çəkildi. İran heç bir təsir etmək imkanına malik olmadı, Ermənistan isə baxa-baxa qaldı. Bakı-Ceyhan Gürcüstandan keçməklə Türkiyəyə çatdı. Bu, Azərbaycanın o vaxtkı siyasi liderinin dönməz siyasi iradəsi kimi həmişə xatırlanacaq.

Vaxtı ilə Azərbaycan Əlmərdan bəy Topçubaşov, Fətəli xan Xoylu, Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli və digərlərinin fədakar, ölüm-dirim savaşı ilə yaratdığı cümhuriyyət Azərbaycan adı ilə dünyaya elan olunanda İran konsulu Azərbaycan adına etiraz etmişdi. İngilis generalı Azərbaycan bayrağını endirməyi tələb edirdi. Ancaq Türkiyə məhz bu dəyərləri qorumaq üçün Azərbaycana gəldi. Mən Qulu Məhərrəmlinin siyasi publisistikasına həm də canlı tarix dərsləri kimi baxıram. Tarix dərsləri sadəcə bilgi, məlumat vermir. Həm də silahlandırır. Ruhu oyaq saxlayır. Düşüncəyə güc və qüdrət bəxş edir.

*02.08.2021*